BAKI
SLAVYAN
UNİVERSİTETİ

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "AZƏRBAYCANŞÜNASLIĞIN AKTUAL MƏSƏLƏLƏRİ: YENİ DÖVRÜN AZƏRBAYCANI"**

**XVI Beynəlxalq Elmi Konfrans**

# MƏLUMAT MƏKTUBU

**Hörmətli magistrantlar, doktorantlar və alimlər!**

7-8 may 2025-ci il tarixində Bakı Slavyan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual məsələləri: YENİ DÖVRÜN AZƏRBAYCANI" XVI Beynəlxalq elmi konfrans keçiriləcəkdir.

Azərbaycanşünaslıq sahəsində aparıcı mütəxəssislərin iştirakı ilə keçiriləcək bu beynəlxalq tədbir, ölkəmizin milli irsini, tarixini, geosiyasi mövqeyini, mədəni və ictimai-siyasi inkişafının müxtəlif aspektlərinin müzakirəsi üçün geniş elmi platforma yaradır. Eyni zamanda, bu tədbirin məqsədi Azərbaycan elminin beynəlxalq miqyasda tanınmasını və qlobal elmi diskussiyalara inteqrasiyasını təmin etməkdir.

**Konfransın istiqamətləri:**

1. HEYDƏR ƏLİYEV VƏ GÜCLÜ AZƏRBAYCAN.

- *Sovet dövründə milli inkişafın təmin edilməsində Heydər Əliyevin rolu.*
- *Heydər Əliyevin siyasi baxışlarında müstəqil Azərbaycan Respublikasının gələcək inkişaf istiqamətləri.*
- *Heydər Əliyevin siyasi irsində milli kimlik və mədəniyyət məsələləri.*
- *Güclü Azərbaycan konsepsiyası. Prezident İlham Əliyev güclü Azərbaycan konsepsiyasını gerçəkləşdirən lider kimi.*

## 2. QƏRBİ AZƏRBAYCAN: MİLLİ İRS VƏ QAYIDIŞ HÜQUQU.

- *Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, abidələri, toponimləri.*
- *Qərbi Azərbaycana Qayıdış konsepsiyası yeni milli ideyanın əsas elementlərindən biri kimi.*
- *Qayıdış hüququ. Deportasiya və qayıdış hüququ: tarixi və beynəlxalq təcrübə.*

## 3. YENİ DÖVRÜN ÇAĞIRIŞLARI: MİLLİ İDEYA VƏ GƏLƏCƏYƏ BAXIŞ.

- *44 günlük müharibə və qarşıda duran vəzifələrin reallaşdırılması.*
- *Yeni qlobal və regional çağırışlar.*
- *Yeni milli ideya və gələcək inkişaf istiqamətlərinə dair baxışlar.*

## 4. KONSTİTUSİYA VƏ SUVERENLİK.

- *Azərbaycanın konstitusiya və hüquq tarixi.*
- *Sovet dövrü və müstəqillik dövrü Konstitusiyaları: müqayisəli təhlillər.*
- *Konstitusiyada təhsil və dil məsələləri.*
- *Dövlət Suverenliyinin bərpası və onun əsas elementləri.*
- *Qarabağa Böyük Qayıdış prosesi vətəndaşların pozulmuş hüquqlarının bərpası kontekstində.*
- *Yaşayış və mülkiyyət hüquqlarının konstitusiyada təsbit edilməsi və Ermənistan tərəfindən insanlıq və mülkiyyət əleyhinə cinayətlərin milli qanunvericilik kontekstində təhlili.*

## 5. POST-MÜHARİBƏ DÖVRÜ ƏDƏBİYYATDA VƏ İNCƏSƏNƏTDƏ.

- *Postmüharibə dövründə ədəbiyyatda yeni inkişaf meyilləri.*
- *Ədəbiyyatda müharibənin bədii inkası.*
- *Kinoda həqiqət və reallıqların əks etdirilməsi.*
- *Savaşın və Zəfərin dili.*
- *Azərbaycan dilinin və ədəbiyyatının müasir vəziyyəti, kənar təsirlər və yeni dil elementləri.*

## 6. YENİ GEOSİYASİ MƏRKƏZ - TÜRK DÜNYASI.

- *Azərbaycan xalqı Türk xalqları ailəsində.*
- *Türk inteqrasiyasında Azərbaycanın artan rolu.*
- *Türk dünyasının geosiyasi güc mərkəzinə çevrilməsi.*
- *Türk Dövlətləri Təşkilatı. Qarabağın bərpası prosesində türk dövlətlərinin və xalqlarının rolu.*
- *Türk dünyasında yeni çağırışlar və yeni prioritetlər.*
- *Təhsildə milli kimlik: yeni baxışlar, tarixin tədrisi məsələləri.*
- *Türk dünyasına inteqrasiyanın mədəni aspektləri.*
- *Türk dünyasına inteqrasiyanın iqtisadi aspektləri.*

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, ingilis, rus

**Konfransın əsas tarixləri:**

| | |
|---|---|
| Məqalələrin göndərilməsi üçün son tarix | **22 aprel 2025-ci il** |
| Qəbul olunmuş məqalələr haqqında müəlliflərə məlumatın verilməsi | **28 aprel 2025-ci il** |
| Məruzəni müşayiət edən təqdimatın (PPT/PPTX) göndərilməsi üçün son tarix *(əgər varsa)* | **02 may 2025-ci il** |

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər (APA üslubunda)**

**Ümumi qeydlər:** Format A4, ölçü 12 pt, şrift Times New Roman, hər tərəfdən kənar boşluqlar 2 sm, sətirarası interval 1,5, abzas 1,25. Mətnin sözləri sətirdən sətirə keçirilmədən yığılmalıdır.

Müəllif haqqında məlumat **(Forma 1)** və məqalə **(Forma 2)**.

**Forma 1. Müəllif haqqında məlumat**

| | |
|---|---|
| **Müəllifin soyadı, adı, atasının adı** | |
| **İş yeri və vəzifəsi** | |
| **Elmi adı və elmi dərəcəsi** | |
| **ORCID İD** | |
| **Əlaqə telefonu** | |
| **E-mail ünvanı** | |
| **Məqalənin adı** | |
| **Konfransın istiqaməti** | |
| **Açar sözlər** | |

**Forma 2. Məqalə** (forma 1-dən sonra yerləşdirilir)

**Məqalənin strukturu və tərtib qaydaları:**

1. **Müəllifin soyadı, adı, atasının adı** (tam açıqlanmalı, kiçik hərflərlə, qalın şriftlə, sol tərəfdən).
2. **Elmi dərəcəsi, elmi adı, iş yeri, ölkə, şəhər, e-mail ünvanı, ORCID İD** (tam açıqlanmalı, kiçik hərflərlə, adi şriftlə, sağ tərəfdən).

3. **Məqalənin adı** (böyük hərflərlə, qalın şriftlə, ortadan).
4. **Açar sözlər** (5-7 söz, məqalənin yazıldığı dildə və ingilis dilində).
5. **Xülasə** (75-100 sözə qədər, məqalənin yazıldığı dildə və ingilis dilində).
6. **Məqalənin mətni** (bütün tərtibat daxil olmaqla 8 səhifəyə qədər).
7. **Ədəbiyyat siyahısı** (əlifba sırası ilə). Ədəbiyyata istinadlar mətndə mötərizədə mənbənin nömrəsi və səhifəsi göstərilməklə verilir. Məsələn: [2] və ya [2; 5; 8] və ya [2; 14-15].

Müəllif haqqında məlumat və məqalə bir faylda 22 aprel 2025-ci il tarixindən gec olmayaraq **aze.studies@bsu-uni.edu.az** elektron ünvanına göndərilir. E-mail mövzusunda konfransın istiqamətini göstərmək vacibdir.

Təqdim olunan bütün məqalələr müəllif mətninin orijinallıq dərəcəsi baxımından ekspertizadan keçiriləcəkdir. **İcazə verilən maksimal plagiat səviyyəsi 8%-dən artıq olmamalıdır.**

Təşkilat komitəsi materialların Konfrans proqramına daxil edilməsi hüququnu özündə saxlayır.

**Əlaqə və ətraflı məlumat:** +994 12 599 08 70 (519), +994 55 242 50 50

Azərbaycan Respublikası, Bakı şəhəri, Bakı Slavyan Universiteti, AZ1014, S.Rüstəm küç., 33

**Hörmətlə,**

**Təşkilat Komitəsi**